www.ipekchi.biz

# İPƏKÇİ

1933-cü ildən nəşr edilir

AZƏRBAYCAN İPƏKÇİLƏRİNİN AÇIQ TRİBUNASI

*"...“İpəkçi”nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm", –*
**Heydər Əliyev.**

№ 2 (2284) | 20 yanvar 2012-ci il | Qiyməti 20 qəpik

## BARAMA MÖVSÜMÜ BAŞLAYIR, AMMA İPƏKÇİLİYİN İNKİŞAFI İLƏ BAĞLI KONSEPSİYA HƏLƏ DƏ QƏBUL OLUNMAYIB?!

Məlum olduğu kimi, respublikamızda barama istehsalı ildən-ilə azalmaqdadır. Ötən il – 2011-ci ildə isə biabırçı nəticə qeydə alınıb: cəmi 12 ton barama tədarük edilmişdir!!! Nəticədə “Şəki-İpək” ASC-nin 2011-ci il martın 18-dən etibarən xammal yoxluğu ucbatından iş ahəngi dayanmış Baramaaçan istehsalatının qapıları bir daha açılmadı, çünki 12 ton barama bu istehsalatın cəmi bir həftəlik xammal ehtiyatı idi və bir həftəlik xammaldan ötrü də sexləri işə salmağa, fəhlələri işə çağırmağa dəyməzdi, bu da o deməkdir ki azı 1000 nəfər fəhlə işsiz qalmışdır!

Son illər respublikada kənd təsərrüfatının bütün sahələrinə dövlət qayğısından söhbət getsə də, az qala bütün kənd təsərrüfatı məhsullarının istehsalına dövlət büdcəsindən dotasiyalar verilsə, sahibkarlar üçün güzəştlər tətbiq olunsa da, təəssüf ki bütün bunlar ipəkçilikdən yan keçməkdədir və nəticə etibarı ilə barama istehsalı və barama becərənlərin sayı ildən-ilə azalır.

Bəlkə 10 ilə yaxındır ki ipəkçiliyin inkişafı ilə bağlı dövlət səviyyəsində hansısa konsepsiyanın qəbul ediləcəyindən söhbət gedir, hesabatlar yazılır, ekspertlərin rəyi dinlənilir, təkliflər verilir, təşəbbüslər irəli sürülür, lakin heç bir konsepsiya qəbul olunmur ki, olunmur! “İpəkçi” qəzetinin redaksiyası hesab edir ki, əgər dövlət barama istehsalını artırmaq üçün 5 il ərzində ildə cəmi 1 milyon manat vəsait ayırarsa, yəni barama becərənlərə dotasiya verərsə, “Şəki-İpək” ASC-nin baramaaçan istehsalatında azı 1500 nəfər daimi işlə, 10 minlərlə ailə isə mövsümü (40 günlük) işlə təmin oluna bilər. Bizcə, iqtisadiyyatımızda digər belə bir sahə yoxdur ki, ora cəmi 1 milyon manat vəsait yönəltməklə bu qədər adamı işlə təmin etmək mümkün olsun. Məsələn, möhtərəm Prezident İlham Əliyev cənabları bu yaxınlarda Şəki Dram Teatrı binasının yenidən qurulması üçün məhz bu qədər məbləğdə pul ayırmışdır və aydındır ki, binanın təmirinə ən çoxu 50 nəfər fəhlə cəlb edilə bilər, deməli, 1 milyon manata cəmi yeri 50 iş yeri yaranmışdı, o da müvəqqəti. Amma eyni məbləğ ipəkçiliyin inkişafına ayrılsaydı...

Qayıdaq yenə ipəkçiliyin inkişafı ilə bağlı konsepsiya. “Şəki-İpək” ASC İdarə heyəti sədrinin müşaviri Teymur Musayev bildirir ki, Konsepsiya layihəsinə hal-hazırda İqtisadi İnkişaf Nazirliyində baxılır. T.Musayev hesab edir ki, yaxın günlərdə onun qəbul olunması mümkündür.

## Şəki SES “Şəki-İpək” ASC-nə verilə bilər?

Respublikada orta əmək haqqının 400 manata çatmasından söhbət getdiyi bir vaxtda, “Şəki-İpək” ASC işçilərinin orta əmək haqqı 100 manatdan o qədər də çox deyil. Maaşların az olmasının əsas səbəblərindən biri isə istehsal prosesində istifadə edilən elektrik enerjisinə görə ödəmələrdir. Yəni “Şəki-İpək” ASC-nin xərcləri, xüsusilə elektrik enerjisinə görə ödəmələri çox olduğuna görə maaşları qaldıra bilmir.

“İpəkçi” qəzetinin redaksiyası hesab edir ki, vəziyyətdən çıxış yolu kimi, ya Şəki Su Elektrik Stansiyası “Şəki-İpək” ASC-yə verilməlidir, ya da Şəki-İpək” ASC daxili ehtiyaclarını ödəmək üçün özü üçün su elektrik stansiyası tikməlidir.

Redaksiyamızın bu təşəbbüsünə ilk reaksiya “Şəki-İpək” ASC İdarə heyəti sədrinin müşaviri Teymur Musayevdən gəldi. O, bildirdi ki, bu məsələni biz çoxdan qaldırmışıq, amma bir qədər fərqli formada, biz yalnız istəyirik ki Şəki SES-dən – hansı ki ora indi səhmdar cəmiyyətidir, müəssisə üçün ayrıca bir xətt çəkək.

## “Şəki-Ipək” ASC-nin Xalça sexində yun xalçaların toxunmasına başlanılıb

Sexin meneceri Gülnar Nurəhmədova məlumat verir ki, indi sexdə həm də yun xalçaların toxunmasına başlanılıb. Əlavə edək ki, yaxın günlərə qədər bu sexdə yalnız təbii ipək sapdan xalçalar toxunmuşdu. İpək çox bahalı xammal olduğu üçün, əlbəttə ki ondan hazırlanan məhsulların, o cümlədən ipək xalçaların da qiyməti də çox baha olur. Məlumdur ki mal nə qədər baha olsa, onun satış tempi də o qədər zəif olur. Sözsüz ki bazarda ipək xalçalara da tələbat var, amma yun xalçalar azı 10 dəfə ucuz olduğu üçün daha çox satılmalıdır. Bu nöqteyi-nəzərdən “Şəki-İpək” ASC-nin xalça sexində istehsal, toxunacaq yun xalçaların hesabına yəqin ki dəfələrlə arta bilər!



Əsədova Nərmin, toxucu



Səlimli Türkan, toxucu

## “Şəki-İpək” ASC-indən 4 nəfər mühəndis-texniki işçi Almaniyaya göndərildi

Müəssisənin texniki direktoru Şahin Əzizov bildirir ki 4 nəfər mühəndis-texniki işçi Almaniyaya göndərilmişdir. Onlar orada 10 günlük kursda “Şəki-İpək” ASC-nin Almaniyadan yeni aldığı dəzgahların istismarı üzrə biliklərə yiyələnəcəklər.

Məlumat üçün əlavə edək ki, “Şəki-İpək” ASC ötən il Almaniyadan yeni toxucu dəzgahları, əriş sarıyıcı dəzgah və s. avadanlılar almışdır.



*Şəkildə: Şahin Əzizov, “Şəki-İpək” ASC-nin texniki direktoru*

## “İpəkçi” – 80

## “İpəkçi” qəzetinin yeni veb-saytı – www.ipekchi.biz, fəaliyyətə başladı

Hörmətli oxucularımız.

Məlumunuz olduğu kimi “İpəkçi” qəzeti 1933-cü ilin mart ayında nəşrə başlayıb və gələn il – 2013-cü ilin mart ayında, bu qəzetin 80 yaşı tamam olacaqdır.

Biz – “İpəkçi” qəzetinin redaksiyası, qəzetimizin 80 illik yubileyi ilə bağlı bir sıra daxili layihələri həyata keçirməyi planlaşdırmışdıq ki, onlardan da biri yubiley ərəfəsində ilk professional veb-saytımızı yaratmaq idi və biz bu işi artıq etdik: “ipekchi.biz” domenli saytımız fəaliyyətə başlayıb!

Azərbaycanda nəşri davam edən sonuncu fəhlə qəzetinin, Azərbaycan ipəkçilərinin açıq tribunası olan “İpəkçi” qəzetinin yeni veb-saytında dərc ediləcək xəbər və məqalələr üçün biz heç bir məhdudiyyət planlaşdırmırıq, amma təbii ki burada “Şəki-İpək” ASC, Şəki və ipəkçiliklə bağlı xəbər və məqalələr çoxluq təşkil edəcəkdir və biz bu saytımızda da insanların hüquqlarının müdafiəsinə, mərhum sabiq prezident **Heydər Əliyevin** vaxtilə bizə ünvanlandığı məktubunda tövsiyə etdiyi kimi “*haq-ədalət uğrunda mübarizə aparmaqda*”, “*hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda*” davam edəcəyik!

Amma nəzərə alın ki bu hələ işin başlanğıcıdır və bu saytın yaxşı bir veb-resurs olması üçün bir qədər vaxt lazımdır.

## Şəkinin icra başçısı rayonda səhiyyənin vəziyyəti ilə maraqlanıb

Şəki şəhər icra hakimiyyəti başçısı Elxan Usubov Mərkəzi xəstəxanadakı vəziyyətlə tanış olmaq məqsədilə əvvəlcə xəstəxananın şöbələrini gəzib. Xəstəxanadakı avadanlıqlarla yaxından tanış olub. Daha sonra isə icra başıçısı və həkimlərin birgə toplantısı keçirilib. Həkimlər Şəkidə görülən quruculuq-abadlıq işlərini vurğulayaraq, səhiyyə sahəsində nəzərdə tutulan işləri qeyd ediblər. Şəkidə səhiyyənin keyfiyyətini artırmaq məqsədilə şəhərin baş planına salınan yenilikləri qeyd ediblər.

Mərkəzi xəstəxananın baş həkimi Məcid Əliyev baş planda Ruhi əsəb dispanseri ilə yanaşı, Vərəm dispanseri üçün yeni binaların inşasının nəzərə alınmasına görə təşəkkürünü bildirib. Daha sonra çıxış edənlər də səhiyyə sahəsində bu il görüləcək işlərdən danışıblar. Vurğulanıb ki, bu il bir sıra şəfa ocaqlarının açılışı nəzrdə tutulur. Xəstəxanalardakı hazırkı vəziyyət barədə məlumat verən həkimlər, xəstəxana ilə bağlı bir sıra problemlərə diqqət çəkiblər. Onların həlli üçün icra başçısına müraciət ediblər. Sonda icra başçısı çıxış edərək Şəki şəhərində görülən və görüləcək işlər haqqında danışıb.

Yeni xəstəxanada mövcud olan əsas problemlər içərisində xəstəxanaya aparan yol və dayanacaq məsələlərinin diqqət mərkəzində olduğunu vurğulayan icra başçısı onların həlli istiqamətində müvafiq tapşırıqlar verib.

*Milli.az, 03.04.2012*

## Şəki kəlağayılarının qiyməti qalxdı!

Şəki kəlağayılarının satış qiyməti azı 50% qaldırılmışdır! “Şəki-İpək” ASC-dən idarə heyəti sədrinin maliyyə işləri üzrə müavini Müzəffər Umarov bizə bildirildi ki, bu heç də ipək qıtlığı ilə bağlı deyil, sadəcə, indi kəlağayı istehsalında yalnız təbii boyalardan istifadə edilir, təbii boyalar isə necə ki daha keyfiyyətlidir, eləcə də onların qiyməti də süni boyalara nisbətən xeyli yüksəkdir və həmin səbəbdən də təbii boyalarla boyanan kəlağayıların qiyməti də yüksək olmalıdır. Yeri gəlmişkən, M.Umarov həm də əlavə etdi ki 01.12.2012 -ci il tarixdən etibarən maaşı 85 manat olan ASC işçilərinin əmək-haqları 10%, yerdə qalan bütün işçilərin maaşı isə 10 manat artırılmışdır.



**Şəkildə: Xalq Artisti Şahnaz Haşımova “Şəki-İpək” ASC-nin mağazasında kələğayı seçərkən**

Ipekch.biz

## Şəki şəhərindəki ölüm saçan qurğular

Rəsmən təsdiqlənməsə də Şəkidə yaşayanlar bilirlər ki, son illər şəhərdə qaraciyər serozu, qadın xəstəlikləri geniş yayılmışdır, yaşı 50-ni haqlamış kişilərin isə az qala yarısı prostat vəzisi xəstəliklərindən əziyyət çəkir... Bəs nə baş verib?!

Diqqət yetirsəniz görərsiniz ki şəhərimizin 7-8 yerində mobil rabitə operatorlarının və s. hüquqi şəxslərin ötürücü qurğuları quraşdırılmışdır. Şəki kimi balaca bir şəhərdə bu qədər ötürücü qurğunun olması isə hədindən artıq çox deyilmi?! Axı bu qurğular, daima elektromaqnit dalğaları yaymaqdadırlar və bu dalğalar da insanların sağlamlığına daima mənfi təsir göstərməkdədirlər!

Məlumdur ki Şəki şəhəri 3 tərəfdən dağlarla əhatə olunmuşdur. Bəs nəyə görə bu qurğular dağlarda yox, şəhərin mərkəzində, əhalinin sıx yaşadığı yerlərdə quraşdırılır?! Bu sualın cavabı isə belədir: Dağda ötürücü qurğunun quraşdırılması üçün əvvəlcə kabel çəkilməlidir, sonra qurğuya nəzarət etmək üçün işçi ayrılmalıdır və s. Deməli, mobil rabitə operatorlarının rəhbərlərliyi və s. hüquqi şəxslər daxili büdcələrinə qənaət etmək üçün həmin qurğuları dağda yox, şəhərimizi mərkəzində quraşdırıblar!

Azərbaycan Radiasiya Problemləri İnstitutunun direktoru Adil Qəribov da deyir ki, ötürücü stansiyalar əhalinin yaşadığı ərazilərdən kənarda və yüksəklikdə quraşdırılmalıdır:

“Biz onsuz da elektromaqnit dalğalarının içərisində üzürük.

İstənilən yerdə quraşdırırlar. O sistemin sahibləri o qədər zəngin adamlardırlar ki, onlar beynəlxalq normativləri də dəyişdirirlər. Elə bir normativ akt yoxdur ki, onlar haqqında orda hansısa bir qadağan olsun. Yüksəklikdə olmalıdır. Yer səthindən ən aşağısı 60-100 metr hündürlükdə olmalıdır. Amma bunlar ev yiyəsinə pul verib quraşdırırlar ”. Yeri gəlmişkən əlavə edək ki, burada söhbət 1 il əvvəl Göyçay rayonunda sakinlərin ötürücü qurğulara qarşı etirazından gedir, hansı ki jurnalist Esmira Cavadova əməkdaşı olduğu “Azadlıq” radiosunun efirində bu məsələni araşdırırdı, o zaman sakinlərin haqlı etirazlarına görə qurğuların bəzisi sökülmüş, quraşdırılması planlaşdırılanlardan bəziləri isə ümumiyyətlə quraşdırılmamışdı...

A.Məmmədov



www.qafqazinfo.az

# Prezidentin qan qardaşı



## Şarl de Qoll: "Mən bu türk oğluna görə, SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim"

Fransa dövlətinin fəxri olan Şarl de Qollu bütün dünya tanıyır. İki dünya müharibəsində iştirak etmiş bu cəsur general və siyasətçi öz adını Fransa tarixinə qızıl hərflərlə yazdırmışdır. Onun "Qollizm" ideologiyası bu gün də Fransa siyasətində böyük rola malikdir. Vətənpərvərlik, cəsurluq, dostluğa ağlagəlməz dərəcədə sədaqət Şarl de Qolun qanında idi. Onda olan mərdlik və alicənablılıq o dərəcədə yüksək səviyyədə idi ki, təsəvvür edin ki, 2-ci dünya müharibəsində o almanlarla vuruşmasına baxmayaraq, çox böyük güzəştə gedərək 1949-cu ildə Almaniya Federativ Respublikasının yaranmasına razılıq verir. Nəticədə Almaniya qısa müddətdə öz iqtisadiyyatını quraraq, yenidən Avropanın aparıcı dövlətlərindən birinə çevrilir.

Şarl de Qollun müsbət xüsusiyyətləri haqqında çox danışmaq olar, lakin onun dostluq naminə konkret öz partizan dostuyla "əhd-peymanına" görə, Fransa dövlətinin siyasətində elə "məxvi diplomatik gedişləri" olub ki, indinin özündə də "siyasət əhli" bunları çözməyə çalışırlar. Lakin heç nə əldə edə bilmirlər. Bu "diplomatik sirri" açıqlamaq üçün bəzi mətləblərə nəzərə salmaq lazımdır.

Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov əslən Şəki rayonunun Oxud kəndindəndir. Fransa müqavimət hərəkatının ən görkəmli nümayəndələrindən biri, Fransanın milli qəhrəmanı olan bu şəxs Şarl de Qolla çiyin-çiyinə faşistlərə qarşı vuruşmuşdur. Əhmədiyyə Cəbrayılovun həyat yolu ən dahi yazıçıları belə heyrətə gətirəcək fantaziyalarla doludur. Şarl de Qolla Əhmədiyyə Cəbrayılovun dostluğu hardasa 1943-cü ildən başlayır. Fransanın cənubunda, Tuluza şəhəri yaxınlığındakı Montaban həbs düşərgəsində o, 4167 nömrəli əsir olarkən, vərəm xəstəliyinə düçar olur. 1943-cü ildə həbsxana komendatının qulluqçusu madam Jannanın köməyi ilə fransız vətənpərvərləri almanların diqqətini yayındırmaq üçün tabutda gizlənmiş Əhmədiyyəni xilas edərək madam Jannanın evindəki zirzəmiyə gətirirlər. Sağaldıqdan sonra fransız dilini öyrənərək partizanlara qoşulur.

Əhmədiyyə Cəbrayılovun öz dilindən çıxan sözləri qeyd edək: "Mən bəstəboy, arıq bir oğlan idim. Partizanlara qoşulandan sonra aylarla onlar məni sınadılar. Saysız-hesabsız əməliyyat tapşırıqlarına gedərək, get-gedə partizanların rəğbətini qazanmağa nail oldum. Həmişə başıma fransız kepkası qoyardım ki, sadə fransızlardan seçilməyim. Bir gün elə oldu ki, Şarl de Qolla əməliyyata gedəsi oldum. De Qoll hansısa bir ərəfədə qabağa keçərkən ona dedim ki, sən keç arxaya və özüm qabağa keçdim. De Qoll dedi ki, niyə belə edirsən? Cavab verdim ki, əgər səni vursalar bütün Fransa partizanları, müqavimət hərakatı başsız qalacaq, əgər məni vurası olsalar, heç bir qorxusu yoxdur". De Qoll Əhmədiyyənin bu sədaqətindən, cəsarətindən vəcdə gəlir və onların birgə əməliyyatları həmin gün uğurla başa çatır. Lakin əsl dostluqlarının təməli elə o gün qoyulur. Sonralar saysız-hesabsız döyüş tapşırıqlarını yerinə yetirən Əhmədiyyə 1945-ci ilin mayında birinci fransız ordusunun tərkibində döyüşlərə qatılır. 1946-cı ildə Əhmədiyyə qəti qərara gəlir ki, vətənə qayıtsın. Şarl de Qoll nə qədər onu dilə tutursa ki, getmə, sənə hər cür şərait yaradacağam, xeyri olmur. Nəhayət, 1946-cı il 25 noyabrda Əhmədiyyə SSRİ-yə qayıdır. Burada onu vətən xaini kimi qəbul edirlər və mükafatlarının bir hissəsini də əlindən alırlar. Əhmədiyyə Cəbrayılov dostlarla söhbətində qeyd edir ki, Şəkidə evdə idim. Qəfildən iki nəfər gəldi ki, yığış gedirik. Heç imkan vermədilər ki, evdəkiləri məlumatlandırım ki, məni aparırlar.

Bu əhvalat 1966-cı ildə Fransa prezidenti Şarl de Qollun SSRİ-yə səfəri zamanı baş verir. Sən demə De Qoll öz dostu Əhmədiyyəni görmək üçün SSRİ-ilə "yaxınlaşmaq" kursu götürür.

SSRİ-yə səfər ərəfəsi, sovet rəhbərliyindən xahiş edir ki, təyyarənin trapında onu qarşılayacaq şəxslər arasında Əhmədiyyə Cəbrayılov da olsun. Lakin De Qoll xatırlaya bilmir ki, Əhmədiyyə əslən haradandır? Təsəvvür edin ki, bütün Sovetlər Birliyində, Respublikalarda Əhmədiyyə Cəbrayılovu axtarıb, ən nəhayət, onu Şəkidə tapırlar.

Şəkidən onu götürüb təyyarə ilə gətirirlər Moskvaya. Heç bir söz demirlər ki, nə baş verir. Moskvada onu hamama göndərib əyin başına əl gəzdirəndən sonra tək bircə kəlmə deyirlər ki, Sovet hökümətinin əleyhinə pis şey demə. Həm də deyərsən ki, hökümət sənə hər cür şərait yaradıb və s. Nə görüş, nə də kiminlə görüşəcəyi barəsində heç bir söz demirlər. Onu maşına oturdub Kremlə gətirirlər.

Lakin onların görüşü təyyarə trapında deyil, Kremldə baş tutur. Şarl de Qollu görən Əhmədiyyə Cəbrayılovun az qalır həyəcandan ürəyi getsin. 11 gün De Qoll Moskvada rəsmi səfərdə olaraq öz dostu Əhmədiyyə ilə birgə istirahət edir. Dünya isə De Qollun SSRİ-yə səfərindən qəribə məlumatlar əldə edirdi. Axı görünməmiş hadisə baş verirdi. Harda görünmüşdü ki, dünyanın aparıcı dövlətlərindən birinin prezidenti 11 gün hansısa bir dövlətdə rəsmi səfərdə olsun.

Şarl de Qoll Sovet rəhbərlərinin iştirakı ilə keçən məclislərin birində azərbaycanlıların-türklərin şərəfinə badə qaldırır. Sağlıq söyləyərkən qeyd edir ki, partizanlıq etdikləri vaxtı Əhmədiyyə ilə barmaqlarını çərtərək qədim əyyamların adət-ənənəsinə uyğun qanlarını birləşdirərək qan qardaşı olublar. Əhd-peyman bağlayıblar ki, heç bir zaman bir-birini unutmayacaqlar. Və son cümləsində xüsusilə fərqlənəcək, hətta ürəyi daş sovet rəhbərlərini riqqətə gətirəcək bir söz deyir: Mən bu türk oğluna görə, SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim. De Qollun bu sözündən sonra Anastas Mikoyanın sifətinin necə qaraldığını Əhmədiyyə Cəbrayılov həmişə xüsusi olaraq vurğulayırdı. Təbii ki, Əhmədiyyə bu sözləri ancaq simsar adamların yanında deyərdi...

De Qoll öz dostu olan Əhmədiyyənin xatirinə həmişə beynəlxalq aləmdə SSRİ-ni müdafiə edirdi. Əhmədiyyənin xatirinə Fransa NATO blokundan çıxır, dolların beynəlxalq hesablamalarda tətbiqindən imtina edir və qızıla keçir. Bütün bunları De Qoll 11 günlük SSRİ səfərində şəxsən Əhmədiyyəyə deyir. De Qoll ancaq bu yolla dostunun yaxşılıqlarını onun vətəninə yaxınlaşmaqla ödəyirdi. Lakin həmin dövr, zaman başqa idi. Onda Azərbaycan müstəqil deyildi.

Şükürlər olsun ki, 20 ildir Azərbaycan müstəqillik əldə edib. Çox təəssüflər olsun ki, De Qoll kimi dahi şəxsiyyət öz dostunun əsil vətəninin müstəqilliyini görə bilmədi. Haradasa düşünmək olar ki, məhz onun ideyalarını dəstəkləyən Fransa siyasətçiləri, De Qollun ruhu şad olsun deyə "Mənfur erməni soyqırımı" cəfəngiyyatını rədd etdilər.

Bu gün Əhmədiyyə Cəbrayılov kimi bir insan da artıq aramızda yoxdur. Lakin onun ruhu bugün də Fransa-Azərbaycan dostluq münasibətlərində, şübhəsiz Fransa Konstitusiya Şurasının məlum qərarından şad olur.

Dahi fransız yazıçısı A. Düma, Əhmədiyyə və De Qollu gələcəkdə birləşdirəcək bir "ilham pərisi" olub. Aleksandr Düma özünün məşhur "Qafqaz səfəri" əsərində yazır: "Bazar və şəhəri xeyli gəzdik. Elə bil ürəyimizə dammışdı ki, daha Nuxadan (Şəki) gözəl bir yer görə bilməyəcəyik". Yazıçı Qafqazı bəşəriyyətin beşiyi adlandırır. Xüsusən Azərbaycan, onun təbiəti və insanları yazıçının ürəyində dərin iz salır "Nə olaydı bu yerlərə gəlmək qismət olaydı"-deyir.

A.Dümanın bu xoş xatirələri Əhmədiyyə və De Qollun dostluğu heç də təsadüf deyil, əksinə böyük Allah belə yazıb ki, bu iki xalq qardaş olmalıdır. Şübhəsiz ki, A. Dümanın bu əsərini Şarl de Qollun Əhmədiyyə Cəbrayılov ilə dostluğunu Fransada çoxları bilir. Təəssüf ki, indiki Fransa hakimiyyəti dairələrində A. Dümanın, Şarl de Qollun miras qoyduğu yolla deyil, Taleyrançılıq yoluyla gedənlər çoxdur.

İstəməzdik ki, indiki Fransa başbilənləri də 82 yaşına çatanda öz nəsillərinə vəsiyyət etsinlər ki, azərbaycanlıları, türkləri biz çox sevirdik, onların dostluqda tayı-bərabəri yoxdur. Onların törəmələrinə hörmət, köməklik edin və s.

Bizlər istərdik ki, Azərbaycan-Fransa əlaqələri o dərəcədə səmərəli olsun ki, De Qollun, Əhmədiyyənin, Dümanın ruhları şad olsun. Düma öz əsərində Şəkidə zurnaçıların yanındakı "züy tutan"ların nə məqsədə qulluq etmələrini başa düşmədiyini yazırdı. Axı deyəsən yazıçının 154 il əvvəl gördüyü "züy tutan"lar indi də Fransada "peyda" olublar?.. /Qafqazinfo.az/

**Adil Əliyev, Milli Məclisin üzvü**

03.04.2012

# Şəki sakini 6 milyon manatlıq korrupsiya faktının ört-basdır edilməsi faktından Prezidentə və xanımına bir daha şikayət yazdı və intihar edəcəyini vurğuladı!

Möhtərəm Prezident İlham Əliyev cənabları, hörmətli Mehriban xanım Əliyeva!

Mən, belə görürəm ki, mənim sizlərə ünvanlandığım şikayət ərizələrinin heç biri sizlərə çatmır. Ona görə də mən ya mətbuat vasitəsilə, ya da xarici dövlətlərin səfirlərinə müraciət edərək mənim şikayət məktublarımın sizlərə çatmasına nail olmaq niyyətindəyəm. Görünür mənim sizlərə ünvanlandığım şikayətlərimin, sizlərə çatmasının qarşısını almaqda maraqlı olan şəxslər vardır. Çünki, Şəki rayon Prokurorunun rayonda səs yayıldığı kimi, yüz min rüşvət alaraq, milyonlarla dövlət vəsaitini mənimsəyən, tam saxtakarlıqla məşğul olan, R.Cəlilovu, mənim qohumum M.Cabbarlını, saxta yollarla hərbi xidmətdən yayınan Cəmin Hacıyevi prokurorluğa heç dəvət etməmiş cinayət işi başlanmasını rədd etməsi faktına sizlər heç vaxt biganə qalmazdınız.

Bundan əlavə, M.Cabbarlının aqrar sahədə mənimsədiyi milyonlarla manat pulun Baş Prokurorluq yanında KQMİ və Maliyyə Nazirliyi DMNX İ tərəfindən ört-basdır edilməsi, mənim şikayətçi kim hüququm olduğu halda istədiyim qərarın surətinin mənə verilməməsi, KQMİ-nin İstintaq Şöbəsinin rəisi Əli Quliyev tərəfindən eyni məzmunlu məktubla məni ələ salması faktları mənim konstitusion hüquqlarımın tapdalanması deməkdir. Mən Əli Quliyevin son cavabındakı, altını qırmızı xətlə cızdığım bədnam qərarın surətini istəyirəm. Bunu tələb etmək mənim müstəsna səlahiyyətimdir. Ona görə də o, qoy məni ələ salmasın.

Şəki rayon Prokurorluğunun "Şəki Bazar" ASC rəhbərliyi barədə başlanmış cinayət işini də, deyilənlərə görə əlli min rüşvət alaraq istintaqını dayandırması, şikayətçilərdən birinin heç dindirilməmiş intihar etməsi faktı da göz qabağındadır.

Cəmin Hacıyevin saxta yolla hərbi xidmətdən yayınması, Hərbi Prokurorluqda bu faktın ört-basdır edilməsi də, şöbə rəisi Oqtay Ağayevin mənə eyni məzmunlu təhqiredici cavabları da məni yavaş-yavaş intihara sürükləyir. Məgər Oqtay Ağayev bilmir ki, mənim iştirakımla bu faktı yoxlatdırmaq üçün bir vətəndaş kimi hüququm var?

Mən, dövlətə sadiq olan bir vətəndaş kimi sizlərdən bu faktların ciddi araşdırılmasını xahiş edirəm.

N.M.Hüseynbəyli, 03.04.2012

***R.S.** Məktubun bir nüsxəsi bizim redaksiyamıza da ünvanlandığından və qəzetimizin də açıq bir tribuna olduğundan onu dərc etdik. Məlumat üçün həm də əlavə edək ki, Nəbi Hüseynbəylinin iddiasına görə Şəkidə 1 il əvvəl onun adlarını göstərdiyi şəxslər 6 milyon manat məbləğində maliyyə pozuntusuna yol vermişlər. N.Hüseynbəyli bu barədə Baş Prokurorluq yanında KQMİ-nə məlumat versə də araşdırma əvəzinə oradan ona yalnız konkret olaraq cavab veriblər ki "cinayət işinin başlanması rədd edilmişdir". N.Hüseynbəyli şikayətçi olduğu halda, şikayəti üzrə cinayət işinin rədd edilməsi barədə qərarın surətini isə ala bilmir və nəticədə həmin qərardan digər instansiyalara şikayət edə bilmir...*

*Yeri gəlmişkən əlavə edək ki, Azərbaycan Respublikasının qanunlarına görə heç kim özünün günahsız olduğunu sübut etməyə borclu deyil, amma bu məsələdə əgər qarşı tərəflər də öz mövqelərini bildirmək üçün bizə rəsmən müraciət edərlərsə, biz onların yazdıqlarını da təmənnasız olaraq "İpəkçi"də dərc edə bilərik.*

# Şəkidə səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər ardıcıl surətdə davam etdirilir

Şəki Mərkəzi Rayon Xəstəxanasının yeni istifadəyə verilmiş 100 çarpayılıq cərrahiyyə korpusunda şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov ilə rayonun səhiyyə işçilərinin görüşü olmuşdur.

Şəhər rəhbərliyi əvvəlcə yeni xəstəxanada yaradılan şəraitlə yaxından tanış olmuşdur.

Yüz çarpayılıq xəstəxana binası Azərbaycan Prezidenti İlham Əliyevin 2011-ci il noyabrın 17-də Şəkiyə səfəri zamanı istifadəyə verilmişdir. Yüksək standartlara uyğun inşa olunan altı korpusdan ibarət xəstəxanada təcili tibbi yardım, reanimasiya, iki cərrahiyyə, onkoloji xəstəliklər, göz xəstəlikləri, diaqnostika, laboratoriya, dializ və poliklinika şöbələri fəaliyyət göstərir. Şöbələrdə quraşdırılan avadanlıq tibb elminin ən son nailiyyətlərinə əsaslanır. Bu şəfa ocağında 300-dək tibbi heyət çalışır.

İcra hakimiyyətinin başçısı Elxan Usubov şöbələri gəzmiş, burada quraşdırılan müayinə, hemodializ, kompyuter-tomoqrafiya, rentgenoqrafiya və digər avadanlıq və aparatlarla tanış olmuş, xəstələrlə görüşmüşdür.

Xəstəxananın geniş konfrans zalında keçirilən tədbiri mərkəzi rayon xəstəxanasının baş həkimi Məcid Əliyev açaraq son illər Şəkidə bütün sahələr kimi, səhiyyənin də maddi-texniki bazasının yenilənməsi və müasirləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmışdır. Bildirilmişdir ki, Prezident İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilmiş bu şəfa ocağı, şübhəsiz ki, Şəki səhiyyəsinin gələcək inkişafına mühüm təkan verəcəkdir. Baş həkim müasir tələblərə cavab verən belə bir xəstəxananın tikintisinə görə şəkililər, eləcə də rayonun tibb işçiləri adından dövlətimizin başçısına dərin minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər cari ildə də ardıcıl davam etdiriləcəkdir. Hazırda mərkəzi rayon xəstəxanasının baza binasında, doğum evi kompleksində əsaslı təmir və yenidənqurma işləri aparılır, Aşağı Göynük xəstəxanası və Baş Göynük həkim məntəqəsi üçün yeni binalar inşa olunur.

Tədbirdə xəstəxananın həkimləri çıxış edərək səhiyyə sahəsinin gələcək inkişafına yönələn belə görüşlərin əhəmiyyətini yüksək qiymətləndirmiş, arzu və təkliflərini bildirmişlər.

Şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov son illər paytaxtla yanaşı, regionlarda da yüksək standartlara cavab verən müasir xəstəxanaların, diaqnostika mərkəzlərinin istifadəyə verilməsini ölkə rəhbərliyinin səhiyyə sahəsinə, insanların sağlamlığına diqqət və qayğısının bariz nümunəsi olduğunu bildirmişdir. O qeyd etmişdir ki, yüksək keyfiyyətli tibbi avadanlıqla təchiz olunmuş bu xəstəxana, şübhəsiz ki, xəstələrin əlavə vaxt sərf edərək Bakı şəhərinə getmək problemindən azad edəcəkdir. Əsas məqsəd əhaliyə daha keyfiyyətli səhiyyə xidmətinin göstərilməsinə nail olmaq, xəstəliklərin təyin olunması, profilaktikası və müalicəsinin əsaslı şəkildə yaxşılaşmasına zəmin yaratmaqdır.

İcra hakimiyyətinin başçısı kollektivə əhalinin sağlamlığının qorunması işində yeni uğurlar arzulamış, tövsiyələrini bildirmişdir.

***AzərTAc**, 03.04.2012*

# Erməni faşistlərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımının təşkilatçılarından biri də Stepan Şaumyan idi

Əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən erməni millətçiləri monoetnik və türksüz Ermənistan uğrunda əsrlər boyu gizli və bəzən leqal müharibələr aparmış, "dənizdən-dənizə" böyük imperiya yaratmaq üçün Türk–Azərbaycan xalqlarına qarşı soyqırım siyasəti yeritmişlər. Ermənistan tarix boyu ən alçaq və ən rəzil mübarizə formalarından məharətlə istifadə edərək və maskalanaraq onu reallaşdırmağa cəhd etmişlər. Xüsusilə 1918-ci ilin ilk aylarında Cənubi Qafqazda, o cümlədən Azərbaycanda siyasi vəziyyət olduqca ağır və mürəkkəb idi. Əvvəla, Rusiyanın Almaniya ilə apardığı Brest – Litovsk danışıqları boşa çıxmışdı, ikincisi, alman – türk qoşunları 1917-ci ilin dekabrın 6-da hücuma keçmişdilər. Belə bir vəziyyətdə türk qoşunlarının irəlilədiyini görən Zaqafqaziya Xüsusi Komissarlığı 1918-ci ilin fevralın 6-da Türkiyə Ordusu Qafqaz cəbhəsinin komandanı Vahab Paşaya Türkiyə ilə danışıqlar aparmaq arzusunda olduğunu təsdiqləyən teleqram göndərməyə məcbur oldu. Deməliyik ki, heç bir nüfuza malik olmayan bu hakimiyyət orqanı bir qədər sonra özünü buraxmaq məcburiyyətində qaldı.

Ona görə də həmin il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilən deputatların yığıncağında Seymi yaradılması və yerli hakimiyyətin ona verilməsi qərarlaşdırıldı.

Seymdə Gürcüstanın sosial-demokratlardan (menşeviklərdən) 32 nəfər, Azərbaycan müsavatçılardan 30 nəfər, erməniləri isə Daşnaksutyundan 27 nəfər təmsil edirdi. Ümumiyyətlə, Seymdə Azərbaycan siyasi partiyalarını 44 nümayəndə təmsil edirdi. Lakin erməni və gürcü fraksiyalarından fərqli olaraq, bu nümayəndələr pərakəndə şəkildə fəaliyyət göstərirdi.

Seymin aprelin 13-də keçirilən iclasında Türkiyə ilə müharibəyə hazırlaşmaq barədə qərar qəbul edildi. Azərbaycan nümayəndələri birmənalı şəkildə Türkiyə ilə müharibəyə qarşı çıxdılar.

Cənubi Qafqaza son əsrdə köçürülmüş və akademik Ziya Bünyadovun dediyi kimi, "zorla pərçim edilmiş" erməni şovinist-millətçi qüvvələri XIX əsrin sonlarından Azərbaycana və azərbaycanlı türklərə qarşı mütəşəkkil surətdə hazırladıqları məkrli siyasətlərini davam etdirdilər. Belə ki onlar 1918-ci ilin əvvəllərindən Bakıda və Qafqazın başqa bölgələrində müsəlman qırğını törətmək üçün hər cür fitnə-fəsadlara əl ataraq ssenarilər hazırlayırdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycanın başbilən, qabaqcıl övladları gözlənilən təhlükəni irəlicədən duyurdular. Belə ki, Cənubi Qafqazda xristian əhali məqsədyönlü şəkildə silahlandırılırdı. Bakıda mart qırğını ərəfəsində Rus Milli Şurası Cənubi Qafqazın xristian əhalisinə müraciət edərək martın 11-dən 18-dək, 19-25 yaş arasında olan rus gənclərinin hərbi səfərbərliyə alındığını bildirdi. Digər tərəfdən isə Qafqaz cəbhəsi ləğv olunduqdan sonra vətənə qayıdan rus əsgərləri öz silah və sursatlarını dəyər-dəyməzinə ermənilərə satırdılar. Erməni hiyləsi tüğyan etməkdə idi. Hətta Bakı şəhərində mart hadisələrindən hələ bir həftə qabaq erməni Daşnaksutyun partiyası şəhərdəki durumdan guya "narahatlığını" bəyan edərək hakimiyyəti ələ almağın zəruriliyini bildirdi.

Artan təhlükəni yaxşı görən müsəlman cəmiyyətləri özünü müdafiə qüvvələri yaradılmasını vacib hesab edirdilər. Bunun üçün Bakıda, Gəncədə, Zəngəzurda, Lənkəranda müsəlman hərbi hissələri yaradıldı. Bakıda kadet məktəbində müsəlman rabitəçiləri hazırlamağa başladılar. Ancaq düşmən qüvvələri bu işlərə müxtəlif əngəllər törədir və onu ləngidirdilər. Çar Rusiyası dağıldıqdan sonra həmişə məkrli olan erməni siyasətçiləri ingilispərəst siyasət apararaq onlardan müəyyən dəstək alırdılar.

Ona görə də Nəriman Nərimanov yazırdı ki, "Böyük Hayastan" xülyası ilə vurnuxan ermənilər hər cür maska geyməyə, hər sifətə düşməyə daim hazırdılar.

1917-1918-ci illərin hadisələri milli hərəkatın yüksəlməsinə təkan verirdi. Məhz buna görə də Azərbaycanın qəzalarında sonrakı qanlı hadisələri törətməklə, milliyyətçi partiyaların sosial bazasını, müsəlman əhalini məhv etməyi qarşılarına məqsəd qoymuşdular.

Odur ki, Bakıya "qırmızı qvardiya" adı altında yeridilən 12 minlik ordunun 70 faizini ermənilər təşkil edirdi. Eyni zamanda, Muğan və Şamaxıda rus-molakan ehtiyat dəstələri də yaradıldı. Sonralar "Bolşevik" cildinə girmiş N.Əsriyants öz xatirələrində göstərirdi ki, hələ 1918-ci ilin fevralında Q.Amirov bizi bir yerə toplayıb bildirdi: S.Şaumyan və A.Caparidzenin tapşırığını yerinə yetirməliyik. S.Şaumyan xəbərdarlıq edirmiş ki, gecə saat 01:00 radələrində siqnal olacaq, bu siqnaldan sonra hücüm edib müsavatın qərargahını tutmalı idik və belə də etdik.

M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" adlı əsərində yazır ki, nəhayət, gündən-günə çoxalan yanğın bir fəsad qığılcımı ilə tutmuşdu və 1918-ci ilin martın 17-dən 21-nə qədər davam edən mart hadisələrinə səbəb oldu.

Bakıda və respublikanın qəzalarında Stepan Şaumyanın başçılığı ilə hazırlanan tarixi cinayəti başlamaq üçün bəhanədə tapıldı. Bunun üçün "Evelina" münaqişəsi törədildi.

H.Z.Tağıyevin Lənkəranda xidmətdə olan oğlu Məhəmməd Tağıyev ehtiyatsızlığından öz əlindəki silahdan açılan atəşlə həlak oldu. Müsəlman alayının zabitləri dəfndə iştirak etmək üçün "Evelina" gəmisi ilə geri qayıtmalı idilər. Ermənilər gizli şəkildə Rus Milli Şurası və əsgərlər arasında şayiə yaydılar ki, guya gəmidə gedən zabitlər tapşırıq almışlar ki, rus – malakan kəndlərini məhv etsinlər. Ona görə də Bakıdakı qeyri-müsəlman hərbi və siyasi qüvvələr gəminin tərksilah edilməsinə tərəfdar oldular. Çox təcili, yəni martın 30-da mədən-zavod rayonunda inqilabi Müdafiə Komitəsi təşkil olunur. Bu təşkilata S.Şaumyan, Q.Karqanov, İ.Suxarov, A.Çaparidze, S.Saaryan, M.Yolçuyan və s. daxil edildi. Bu komitənin təşəbbüsü ilə gəminin Lənkərana getməsi dayandırıldı və zabitlər tərksilah edildi. Müsəlman əhalisi silahların qaytarılmasını tələb edərək toplantılar keçirdilər. Elə həmin gün N.Nərimanovun evində S.Şaumyanla və İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə olunmasına baxmayaraq, bolşevik-daşnaq birləşməsi Hümmətə etibar etməyərək sözünə əməl etmədi. S.Şaumyanın dediyi kimi, həlledici döyüşlərə hər gür hazırlıq görülmüşdü və dərhal bütün cəbhə boyu hücuma başlanıldı. İlk atəşlər Bakıda martın 30-da axşam saat 5-də açıldı. Erməni Milli Şurası və Daşnaksutyunun müsəlman cəmiyyətləri ilə apardıqları bütün danışıqlar təxribat xarakteri daşıyırdı.

Təpədən-dırnağa qədər silahlanmış erməni quldurları evlərə soxulur, uşaqları yanan evlərin içinə atır, sakinləri öldürür, süngü ilə doğrayır, körpələri süngülərə taxırdılar. Hər cür vəhşiliyə yol verən erməni-bolşevik quldurları qadınları ağır formada qətlə yetirirdilər. Şəhərin bir yerində cəsədləri ilə qeyri-insani davranılmış 57 müsəlman qadının meyidi tapılmışdı.

Bakı şəhərinin indiki İstiqlal küçəsi ilə Hüsü Hacıyev küçəsinin tinində K.Mikoyan, İ.Mirzoyan və S.Lalayan əl pulemyotu ilə küçədən keçən müsəlman əhalisini qırırdılar.

Bunuda qeyd edək ki, Bakıda müsəlmanların kütləvi sürətdə qırıldığını olduğu kimi əks etdirən menşevik "Naş qolos" qəzeti belə yazırdı: "Hər yerdə meyitlər qıc olmuş, eybəcər hala salınmışdı". Təzəpir məscidi ətrafında təsəvvür edilməz mənzərə vardır. "Ziyarətgahın təhqiri geniş kütlələrin qəlbini ağrıdır, meyitlər onları daha çox həyəcanlandırır..."

Bakı şəhərində 1918-ci il martın 30, 31-də və aprelin 1-də qətlə yetirilən azərbaycanlıların sayının hiyləgərcəsinə azaldılması cəhdinin də ilk dəfə bu qırğına başçılıq edən S.Şaumyan olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, Sosial Demokrat Təşkilatının aprel (1918) konfransına verdiyi məlumatda bunları qəsdən kiçiltmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan deputat istintaq komissiyasının ilkin hesablamasına əsasən, Bakıda mart soyqırımında ölən azərbaycanlıların sayı 12-15 min nəfər olmuşdur.

Mart ayının 15-də sübh çağı S.Şaumyanın bilavasitə tapşırığı ilə S.Lalayanın başçılıq etdiyi 3 minlik qaniçən qoşun dəstəsi ilk dəfə Şamaxıya soxuldu. Şamaxı şəhəri və bu qəzanın 72 kəndi daşnak-bolşevik faşist qoşunları tərəfindən darmadağın edildi. Şamaxı qırğınında 8 min nəfər azərbaycanlı öldürüldü. Bunların 1653 nəfəri qadın, 965 nəfəri isə uşaq idi.

Quba qəzasında törədilən qırğınlara daşnak- faşist S.Şaumyanın xüsusi səlahiyyət verdiyi Hamazasp başçılıq etmişdir. Qəzada erməni bolşevik quldurları aprel ayında 122 müsəlman kəndini dağıtmışdır. Yüzlərlə azərbaycanlı, ləzgi məhv edilmişdi. Həmin quldur dəstəsinin başçısı Hamazasp deyirdi ki, Xəzər dənizindən Şah dağına qədər bütün müsəlmanları qılıncdan keçirəcəyəm. Son dövrlərin tədqiqatları sübut edir ki, eyni zamanda, Quba qəzasında yaşayan yüzlərlə dağ yəhudilərindən olan vətəndaşlarımızda qətlə yetirilmişdir.

2007-ci ilin yay aylarında Quba şəhərində tikinti işləri aparılarkən böyük bir məzarlıq aşkar edilmişdir.

Mütəxəssislərin fikrincə, bu məzarlıqlardakı insan sümüklərinin qalıqları da dəfn adətlərinə əməl edilmədən ört-basdır edilmişdir. Bu da qəzada erməni daşnaklarının dinc əhaliyə qarşı həyata keçirdiyi kütləvi soyqırımın nəticəsidir.

Hamazaspın dəstəsi istər Qubaya gələrkən bütün yol boyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində vəhşiliklər törətmişlər. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, uşaqları, qadınları qəddarcasına qətlə yetirdilər. Qubada bir-bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər, hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayı Məmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsinin, Məhəmməd Rəsul oğlunun 5 nəfərlik ailəsinin başlarını kəsmiş, Hacı Dadaşbala Qasım oğlunun arvadı Bibixanımı və oğlu Əbdül Qasımı diri-diri oda ataraq yandırmış, Kərbəlayı Abuzər Məstan oğlunu və iki qızı – Höküməni və Bustanı, qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramış, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışdılar.

1918-ci ilin mart-aprel aylarında Azərbaycanın Kürdəmir, Lənkəran, Salyan, Gəncə, Zəngəzur və İrəvan bölgələrində də erməni daşnakları öz havadarlarının köməyi ilə qırğınlar törətmişlər. Neftçala rayonunda ötən ildə aşkar edilmiş məzarlıqlarda qeyd etdiklərimizin bu bölgədə təzahürüdür. Nəzər yetirdikdə aydın olur ki, yalnız XX əsrin müxtəlif dövrlərində erməni-faşist daşnakları 2 milyon nəfər azərbaycanlını məhv etmişlər. Ancaq Azərbaycana qarşı törədilmiş bu qanlı faciələr Sovet rejiminin mövcud olduğu 70 il ərzində xalqdan gizlədilmişdir. Xalqımızın tarixinin bu səhifəsinin öyrənilməsi üzərinə qadağa qoyulmuşdu.

Ona görə də qeyd etməliyik ki, XX yüzilliyin istər əvvəlində, istərsə də sonunda istiqlala gedən yolumuz qan dəryasından keçsə də, xalqımızı amalından sapındırmaq, çəkindirmək, döndərmək heç bir mənfur qüvvəyə nəsib olmamışdır.

Azərbaycanın möhtərəm Prezidenti, cənab İlham Əliyevin "31 Mart Azərbaycanlıların Soyqırımı günü" ilə əlaqədar imzaladığı sənəddə deyildiyi kimi, artıq son vaxtlar dünya siyasətində böyük təsiri olan dövlətlərin rəhbər dairələri, geniş ictimaiyyət, beynəlxalq təşkilatlar Azərbaycan həqiqətlərini daha tez-tez etiraf edir, Ermənistanı işğalçı ölkə kimi tanıdıqlarını bildirirlər. Azərbaycan və qardaş Türkiyənin rəsmi və ictimai dairələri tərəfindən saxta "erməni soyqrım"nı ifşa edən tarixi sənədlər beynəlxalq təşkilatlara təqdim olunur. Ümid edirik ki, Dünya dövlətləri tarixi həqiqətləri biləcək və türk xalqlarının haqq səsi qələbə çalacaqdır. O zaman Mustafa Kamal Atatürkün "yurdda sülh, cahanda sülh" prinsipi, dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevin "Qafqazı sülh zonasına çevirək" arzusu qələbə çalar.

31 Mart – Azərbaycanlıların soyqırımı günü və xalqımıza qarşı törədilən digər bəşəri cinayətlər uzun illər araşdırılmasa da, ümummilli liderimiz Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra həmin istiqamətdə əsaslı addımlar atılmış, bu faciələrə siyasi-hüquqi qiymət verilmişdir. Məhz böyük öndərin səyi nəticəsində 31 Mart Azərbaycanlıların Soyqırımı Gününün 1998-ci ildən etibarən dövlət səviyyəsində qeyd edilməsi bir çox qaranlıq məqamlara işıq salıb, beynəlxalq təşkilatların diqqəti xalqımıza qarşı törədilən qətliam və faciələrə yönəldilib.

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilən sərəncamda deyilir: "Aprel işğalı Azərbaycan Cümhuriyyətinin liderlərinin bir qismini Məmmədəmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyasına məruz qoydu".



İsrail İmamlı
İnzibati-İqtisadi Məhkəməsinin hakim köməkçisi, MAA-nın Beynəlxalq Hüquq fakültəsinin magistri

*"İpəkçi" qəzetinin çıxışından sonra*

# ŞƏKİ ŞƏHƏRİNDƏKİ YENİ VƏ ƏN MÖHTƏŞƏM TİCARƏT MƏRKƏZİ İSTİSMARA TAM HAZIRDIR!!!

Əvvəlki saylarımızda Şəkinin ticarətlə məşğul olmaq istəyən sahibkarları tərəfindən Şəki şəhərində böyük bir ticarət mərkəzinin inşa edilməsindən bəhs etmişdik və həm də göstərmişdik ki, bəzi vəzifəli şəxslər həmin ticarət mərkəzinin fəaliyyətə başlaması yolunda süni maneçiliklər yaradıblar. Qəzetimizin haqlı çıxışından və məsələ barədə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarına ünvanlandığımız Açıq məktubumuzdan sonra yeni ticarət mərkəzinin fəaliyyətə başlaması yolundakı bütün manеələr aradan qalxdı. Məlumat üçün onu da əlavə edək ki, bu möhtəşəm ticarət mərkəzinin fəaliyyətə başlaması Fövqəladə hallar Nazirliyi ilə də razılaşdırılmışdır, indi yalnız qalır, yerli əhəmiyyətli rəsmiləşdirmələr, məsələn, Şəki İcra Hakimiyyəti başçısının sərəncamı. Heç şübhəsiz ki Şəki şəhərinin hörmətli icra hakimiyyəti başçısı Elxan Usubov cənabları, tezliklə bu möhtəşəm ticarət mərkəzinin fəaliyyətə başlaması barədə müvafiq sərəncam imzalayacaqdır. Odur ki, üzünüzü Şəki əhalisinə tutub təyirik: Əziz şəkililər, yeni ticarət mərkəzində alış-veriş etməyə hazır olun!





## AzərTAc xəbər verir:

*02.04.2012*

### Şəkidə "Opel" markalı avtomaşının aşması sürücünün ölümünə səbəb olmuşdur

Şəki rayonunda Balakən sakini Cəlil Əliyev idarə etdiyi "Opel" markalı avtomaşını aşırmışdır. Xəsarət almış sürücü və sərnişinləri – həyat yoldaşı Şəkinə və qızı Gülər xəstəxanaya yerləşdirilmişlər. C.Əliyev orada ölmüş, digərlərinin vəziyyətləri isə orta-ağırdır.

Gəncə şəhərində şəhər sakini Miryasin Məmmədovun idarə etdiyi "VAZ-21063" və Şəmkir rayon sakini Elmir Əhmədovun idarə etdiyi "VAZ-21074" markalı avtomaşınlar toqquşmuşdur. Xəsarət almış E.Əhmədov və sərnişinləri İmran Məmişov, Şirin Həsənova, Samirə Məmişova, habelə M.Məmmədovun sərnişinləri Xalidə Əhmədova, Elnur Əhmədov və Fəridə Usubova xəstəxanaya yerləşdirilmişlər, vəziyyətləri orta-ağırdır.

Bundan başqa Gəncə şəhərində daha bir yol-nəqliyyat hadisəsi də baş vermişdir. Şəhər sakini Rzaqulu Rzayevin idarə etdiyi "Mercedes" və Vüsal Bayramovun idarə etdiyi "VAZ-2106" markalı avtomaşınlar toqquşmuşdur. Xəsarət almış V.Bayramov və avtomobildə olan sərnişinləri Vüqar Ələkbərov və Fidail Əhmədov xəstəxanaya yerləşdirilmişlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, hadisələrlə bağlı cinayət işi başlanmışdır, araşdırmalar davam etdirilir.

***

*01.04.2012*

### Şəkidə meşə fonduna məxsus ərazidə baş vermiş yanğının qarşısı alınmışdır

Şəki rayonunun Küncüt bələdiyyəsinə məxsus sahədə yanğın hadisəsi baş vermişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, hadisəyə səbəb Oğuz-Şəki yolunun mühafizə zolağının ətrafında yaşayan sakinlər tərəfindən tonqalın yandırılması olmuşdur. Yanğın genişlənərək meşə fonduna məxsus əraziyə keçmiş və nəticədə bir hektar sahədə quru ot örtüyü və kollar yanmışdır.

Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirliklərinin yerli qurumları və əhali tərəfindən yanğın nəzarətə götürülmüş, alovun digər ərazilərə yayılmasının qarşısı alınmışdır.

***

*31.03.2012*

### Şəkidə 1918-ci ilin mart soyqırımı qurbanlarının xatirəsi anılmışdır

Ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirin əvvəlində soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə şəhər icra hakimiyyəti aparatının şöbə müdiri Sadiq Yusifovun "Ermənilərin Azərbaycanda həyata keçirdikləri soyqırımı hadisələri" mövzusunda məruzəsi dinlənilmişdir.

Bildirilmişdir ki, son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. XIX əsrin sonları, XX əsrin əvvəllərində, xüsusilə 1905-1907-ci illərdə Bakıda və digər bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı siyasətinin ilkin mərhələsi idi. 1915-ci ildən 1920-ci ilədək olan dövrə təsadüf edən ikinci mərhələdə erməni quldur dəstələri yenə Bakıda və qəzalarda misli görünməmiş soyqırımı həyata keçirmişlər.

Qeyd edilmişdir ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti sonrakı illərdə də davam etmişdir. 1948-1953-cü illərdə indiki Ermənistan ərazisində öz ata-baba yurdunda yaşayan azərbaycanlıların deportasiyasına nail olan ermənilər 1988-ci ildə yüz minlərlə azərbaycanlını öz doğma yurd-yuvalarından qovmaqla etnik təmizləmə siyasətini əsasən başa çatdırmışlar.

Diqqətə çatdırılmışdır ki, erməni vandalizmi, azərbaycanlılara qarşı soyqırımı siyasəti tarix boyu davam etsə də, baş verənlərə lazımi qiymət verilməmiş, dünyaya çatdırılmamışdır. Yalnız Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra soyqırımı barədə həqiqətlərin beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü iş aparılmış, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı müvafiq fərmanla erməni millətçilərinin hərəkətlərinə dolğun və hərtərəfli hüquqi-siyasi qiymət verilmişdir.

*31.03.2012*

### Şəkidə ağacəkmə aksiyası keçirilmişdir

Yaşıllaşdırma tədbirləri çərçivəsində martın 31-də Şəkidə növbəti ağacəkmə aksiyası keçirilmişdir. İməcilik zamanı Oğuz-Şəki avtomobil yolunun hər iki tərəfində, eləcə də qəsəbə və



kəndlərdə 10 min ədəd qoz, ağcaqayın, sərv və digər növ yerli ağac tingləri, habelə, meyvə ağaclarından alma, alça, gilas və tut tingləri əkilmişdir. Şəkililər ekoloji mühitin sağlamlaşdırılmasına yönələn bu xeyirxah aksiyada olduqca fəal iştirak etmişlər.

Ağacəkmə aksiyası növbəti həftələrdə də davam etdiriləcəkdir. Ümumiyyətlə, yaz mövsümündə rayon ərazisində 30 mindən artıq müxtəlif növ ağac tinginin əkilməsi nəzərdə tutulur.

***

*28.03.2012*

### ATƏT-in Bakı ofisinin rəhbəri Şəkidə olmuşdur

ATƏT təmsilçisi əvvəlcə şəhər polis şöbəsinin fəaliyyəti ilə tanış olmuş, hüquq mühafizə orqanlarının əməkdaşları ilə görüşmüşdür. Sonra diplomat Şəki Hüquq Resurs Mərkəzinə baş çəkmiş, mətbuat nümayəndələrinin suallarını cavablandırmışdır.

Şəhər icra hakimiyyətində keçirilən görüşdə icra hakimiyyətinin başçısı Elxan Usubov qonağa Şəkinin tarixi, mədəniyyəti, iqtisadiyyatı, qədim ipəkçilik ənənələri, habelə şəhərdə aparılan tikinti-quruculuq və yenidənqurma işləri barədə ətraflı məlumat vermişdir.

Qonağın diqqətinə çatdırılmışdır ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq hazırda Şəkinin milli memarlıq ənənələrinin və üslubunun qorunub saxlanması şərti ilə müasir şəkildə yenidən qurulması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Şəhərdəki qədim tarixi-memarlıq abidələri bərpa olunur, prospekt və küçələr, park və meydanlar yenidən qurulur, infrastruktur təzələnir.

Səmimi qonaqpərvərliyə görə minnətdarlıq edən ATƏT-in Bakı ofisinin rəhbəri Koray Tarqay Azərbaycanda paytaxt Bakı şəhəri ilə yanaşı, bölgələrin də sürətlə inkişaf etdiyini bildirmiş, qədim Şəki ilə tanışlığından məmnun qaldığını diqqətə çatdırmışdır. Diplomat əməkdaşlığın genişlənməsində belə görüşlərin əhəmiyyətini xüsusi vurğulamışdır.

***

*19.03.2012*

### Şəki-Zaqatala iqtisadi rayonunda fındıqçılığın inkişafının perspektivləri müzakirə edilmişdir

İqtisadi İnkişaf Nazirliyinin və Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafı: rəqabətqabiliyyətli fındıq emalı məhsullarının istehsalının artırılması" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə müvafiq dövlət qurumlarının, Şəki-Zaqatala regionu üzrə yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və fındıq istehsalı ilə məşğul olan sahibkarlar iştirak etmişlər.

Nazirliyin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev əlverişli təbii şəraitinə, münbit sahibkarlıq mühitinə malik olan Balakən və ətraf rayonlarda fındıqçılıq təsərrüfatlarının daha da genişləndirilməsi və müasir fındıq emalı müəssisələrinin yaradılması üçün geniş imkanlar olduğunu diqqətə çatdırmışdır.

İqtisadi İnkişaf Nazirliyinin sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımov çıxışında fındıq istehsalının stimullaşdırılması, bu sahədə istehsal olunan məhsulların potensial bazarlara çıxarılmasında sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, iş adamlarının təşəbbüslərinin dəstəklənməsi tədbirlərinin davam etdirildiyini vurğulamışdır.

İqtisadi İnkişaf Nazirliyinin xarici ticarət siyasəti və Dünya Ticarət Təşkilatı şöbəsinin müdiri Bəxtiyar Alışov istehsal olunan məhsulların ənənəvi və yeni bazarlara ixrac imkanları, rəqabət qabiliyyətliliyinin artırılması, məhsulların beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması, o cümlədən istehsal olunan fındığın xarici bazarlara çıxarılmasında "GSP+" proqramının və bu sahədə sahibkarların maarifləndirilməsinin əhəmiyyəti barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Nazirliyin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GİZ), Azərbaycan Sahibkar Qadınlar Forumunun nümayəndələri qeyri-neft məhsullarının xarici bazarlara çıxarılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişlər.

***

*17.03.2012*

### Şəki Regional Ədliyyə Şöbəsində ötən ilin yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir

Şəki Regional Ədliyyə Şöbəsində Şəki və Göyçay regionları üzrə ədliyyə orqanlarının 2011-ci il ərzindəki fəaliyyətinin yekunlarına həsr olunmuş regional müşavirə keçirilmişdir.

Müşavirədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müvafiq icra baş idarələrinin rəhbərləri və məsul əməkdaşları, habelə 14 rayonun yerli ədliyyə orqanlarının rəhbərləri iştirak etmişlər.

AzərTAc xəbər verir ki, müşavirəni Ədliyyə Nazirliyi icra baş idarəsinin rəisi, baş icra məmuru, III dərəcəli dövlət ədliyyə müşaviri Xanlar Zeynalov açaraq ölkənin bütün regionlarında keçirilən belə müşavirələrin ədliyyə orqanlarının illik fəaliyyətini təhlil etmək, görülən işlərlə yanaşı, mövcud nöqsan və çatışmazlıqları, onları doğuran səbəbləri yerlərdə birgə müzakirə edərək aradan qaldırmaq, ədliyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin daha da artırılmasına nail olmaq məqsədi daşıdığını diqqətə çatdırmışdır.

Müşavirədə Şəki Regional Ədliyyə Şöbəsinin rəisi Rəhman Məmmədov və Göyçay Regional Ədliyyə Şöbəsində rəhbərliyi təmin edən Ruslan Osmanlının hesabat məruzələri dinlənilmişdir.

Sonra rayonların yerli ədliyyə orqanlarının rəhbərləri hesabat ilində görülmüş işlər barədə çıxış etmişlər.

Müşavirəyə Xanlar Zeynalov yekun vuraraq regionlarda ədliyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin daha da artırılması üçün müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

***

16.03.2012

### Qəbələdə "Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafı: rəqabətqabiliyyətli şərab məhsulları istehsalının artırılması" mövzusunda tədbir keçirilmişdir

Prezident İlham Əliyevin 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir.

AzərTAc xəbər verir ki, martın 16-da İqtisadi İnkişaf Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafı: rəqabətqabiliyyətli şərab məhsullarının istehsalının artırılması" mövzusunda tədbir keçirilmişdir.

Müvafiq dövlət qurumları nümayəndələrinin və şərabçılıqla məşğul olan sahibkarların iştirak etdikləri tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Qəbələdə sahibkarlıq fəaliyyətinin genişləndiyini, yeni istehsal və xidmət müəssisələrinin, sosial infrastruktur obyektlərinin yaradıldığını, əhalinin məşğulluq səviyyəsinin yüksəldiyini bildirmişdir. Qəbələ və ətraf rayonlarda şərabçılıq təsərrüfatlarının daha da genişləndirilməsi və müasir şərab emalı müəssisələrinin yaradılması üçün münbit təbii şəraitlə yanaşı, əlverişli işgüzar mühitin də olduğu qeyd edilmişdir. Vurğulanmışdır ki, rayonda fəaliyyət göstərən şərab istehsalı müəssisələrinin istehsal etdikləri yüksək keyfiyyətli məhsullar xarici ölkələrə ixrac olunur və bu məhsullara tələbat ilbəil artır.

İqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov Prezident İlham Əliyevin regionların inkişafına böyük önəm verdiyini vurğulamış, bölgələrin tarazlı inkişafının təmin olunmasında dövlət proqramlarının uğurlu icrasının xüsusi əhəmiyyətini qeyd etmişdir. Qeyd olunmuşdur ki, "2012-2020-ci illərdə üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icrası ölkədə üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsinə, aqrar sahənin gəlirliliyinin və ixracat potensialının artırılmasına, kənd əhalisinin maddi rifahının yüksəldilməsinə əlverişli şərait yaradacaqdır.

Nazirliyin sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımov, xarici ticarət siyasəti və Dünya Ticarət Təşkilatı şöbəsinin müdiri Bəxtiyar Alışov üzümçülüyün və şərab istehsalının inkişaf perspektivləri, istehsal olunan məhsulların ənənəvi və yeni bazarlara ixrac imkanları, rəqabət qabiliyyətliliyinin artırılması, məhsulların beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması, o cümlədən şərab məhsullarının xarici bazarlara çıxarılmasında "GSP+"proqramının əhəmiyyəti və sahibkarların maarifləndirilməsi tədbirləri barədə məlumat vermiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışlar.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) nümayəndəsi Eldəniz Məmmədov, İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GİZ), Azərbaycan Sahibkar Qadınlar Forumunun nümayəndələri ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, regionun sahibkarları üçün potensial ixrac bazarlarına çıxış imkanları, qeyri-neft məhsullarının, o cümlədən şərab məhsullarının xarici bazarlara çıxarılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişlər.

Tədbirdə çıxış edən sahibkarlar ölkədə özəl bölməyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

***

*15.03.2012*

### Şəki şəhərinin baş planının təqdimatı olmuşdur

Şəki Şəhər İcra Hakimiyyətinin akt zalında şəhərin 2030-cu ilə qədərki dövrdə inkişafına dair baş planın müzakirəsi keçirilmişdir.

Şəki ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən yığıncaqda şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək Azərbaycanın şimal-qərb bölgəsində mühüm siyasi, sosial-iqtisadi və mədəni mərkəz hesab olunan Şəkinin orta əsr Şərq şəhərlərinə məxsus şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan, bənzəri olmayan bir şəhər olduğunu bildirmişdir. O qeyd etmişdir ki, nadir tarixi-memarlıq abidələri- karvansaraylar, məscidlər, minarələr, qala divarları, evlər, körpülər bu şəhərin qədim memarlıq üslubundan xəbər verir.

Lakin bir zamanlar Şərqin nadir sənət incisi kimi tanınan bu şəhər biganəlik və özbaşınalıqdan xeyli ziyan çəkmişdir. Bu gün şəhərin milli memarlıq üslubunun qorunub saxlanması şərti ilə müasirləşdirilməsi ən vacib vəzifələrdən biri hesab olunur. Bu baxımdan Prezident İlham Əliyevin 2011-ci il sentyabrın 12-də imzaladığı "Şəki şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamın mühüm tarixi əhəmiyyəti vardır.

E.Usubov bildirmişdir ki, həmin sənəddə digər məsələlərlə yanaşı, əlaqədar dövlət qurumlarının razılaşdırılmış təklifləri əsasında 2030-cu ilə qədərki dövrdə Şəkinin inkişafına dair baş planın hazırlanması vəzifəsi qarşıya qoyulmuşdur. Bu müddət ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları dəfələrlə Şəkidə olmuş, baş planın hazırlanması istiqamətində səmərəli iş aparmışlar.

Sonra Şəki şəhərinin baş planının təqdimatı olmuşdur.

Təqdimatı keçirən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Dövlət Baş Layihə İnstitutunun direktoru Bəkir Əhmədov bildirmişdir ki, Şəki uzun illər şəhərin baş planı olmadan, fərdi şəkildə inkişaf etmişdir. Lakin belə bir nadir şəhərin baş planının olması olduqca vacib idi. Baş plan tərtib olunarkən şəhərin milli-memarlıq üslubunun qorunub saxlanması şərti ilə inkişaf etdirilməsi diqqət mərkəzində saxlanmışdır. Planda Şəki şəhərinin inkişaf strategiyasına uyğun tikinti-abadlıq işlərinin aparılması, tarixi mədəniyyət abidələrinin mühafizəsi, mövcud mədəni-tarixi potensialdan səmərəli istifadəyə xüsusi diqqət yetirilmişdir.

Baş planda şəhərin ərazisinin 2 min hektar, yəni 2 dəfəyə yaxın genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə ətrafda yerləşən Kiş, Oxud, İnçə və Qoxmuq kəndləri şəhərin ərazisinə qatılacaqdır. Şəhərsalma zamanı istirahət, turizm infrastrukturunun qədim memarlıq ənənələrinə uyğun yenidən qurulması nəzərdə tutulur. Eyni zamanda, layihədə əhali artımı, yeni yaşayış, istirahət, idman kompleksləri, əhaliyə mədəni-məişət xidməti, şəhərdaxili nəqliyyat, mühəndis-kommunikasiya şəbəkələri, kommunal təsərrüfatı, sənaye zonası, istehsal sahələrinə aid obyektlərin yerləşdiyi ərazilər əksini tapmışdır.

Təqdimatdan sonra layihənin memarları iştirakçıların baş planla bağlı çoxsaylı suallarını cavablandırmışlar.

*"İpəkçi" qəzeti saytında dərc olunmuş yazıdan sonra*

# Gürcüstandakı polis mayoru həbs olundu!



Zakir Mustafayev

İpekci.info saytında Yeni Azərbaycan Partiyasının üzvü Zakir Bədəlovun və ailə üzvlərinin Gürcüstan Respublikası, Marneuli rayon polisinin əməkdaşı, polis mayoru, "Sahib" ləqəbi ilə tanınan Zakir Mustafayev tərəfindən ölümlə təhdid edilməsi barədə yazı dərc etmişdik. "Gündəm xəbər" qəzetinin yazdığına görə, Gürcüstan prezidenti Mixail Saakaşvili Bakıya son səfəri zamanı bu barədə məlumatlandırılıb və ölkəsinə qayıtdıqdan sonra Zakir Mustafayevin məsuliyyətə cəlb olunması barədə göstəriş verib. Yeri gəlmişkən qeyd edək ki, 20 ildir Bakı şəhərində yaşayan Zakir Bədəlov Gürcüstan əsillidir və o, əvvəllər Gürcüstan mayoru ilə dost olmuşdur.

2006-cı ildə Zakir Mustafayev öz dostu Z.Bədəlovun Bakıda ev tikdiyini və pulunun çatmadığını biləndə maddi kömək təklif edib, deyib ki, mən sənə 60 min dollar borc pul verə bilərəm, sonra mən ev tikəndə sən pulu qaytararsan və kömək edərsən. Razılaşıblar. Sonradan o, öz bacısı oğlu Paşa ilə Gürcüstandan daha 30 min dollar göndərib. 2006-cı ilin sentyabrında isə daha 10 min dollar verib. Lakin 1 aydan sonra dostundan tələb edib ki ya pulu qaytarsın, ya da ki hər ay üçün 5 faiz sələm ödəsin.

Nəticədə Z.Bədəlov yenicə tikib başa çatdırdığı evini Azərbaycan Kredit Bankına girov qoyur və 125 min dollar pul götürərək Zakir Mustafayevin pulunu tamamilə qaytarır. Lakin bundan sonra Zakir Mustafayev Z. Bədəlovdan hədə-qorxu yolu ilə daha 150 min manat alır. Yeri gəlmişkən qeyd edək ki, bu işə 2011-ci ilin sentyabr ayında Sabunçu rayon məhkəməsində baxılmışdır, Zakir Mustafayev və dayısı oğlu Həbibov Abdulla – hansı ki vaxtilə, hədə-qorxu yolu ilə pulu Zakir Mustafayevin adı ilə götürüb, aldıqları pulları etiraf etmişlər, lakin iş yenidən istintaqa göndərildikdən sonra Sabunçu rayon 13-cü polis bölməsinin müstəntiqi Samir Salmanov işə xitam vermişdir.

Zakir Bədəlovun məlumat verir ki Zakir Mustafayev və dayısı oğlu həmin pullara Bakıxanov qəsəbəsində yaşayış evləri və obyektlər alıblar. Zakir Bədəlov həm də əlavə edir ki əgər mən, həmin vaxt pulu verməsəydim, evimi qumbara ilə partlada və ailə üzvlərimi öldürəcəkdilər, ona görə də evimi ikinci dəfə girov qoyub onların istədiyi pulu vermişəm.

*Milli Qəhrəmanlarımız*

# Mikayıl Cəbrayılov



1952-ci il aprel ayının 27-də Şəkinin Oxud kəndində anadan olmuşdur.

1959 – 66-cı illərdə həmin kənddə 8 illik təhsil almışdır.1966-cı ildə Bakı şəhərindəki 23 nömrəli texniki peşə məktəbinə daxil olmuş,1968-ci ildə oranı bitirmişdir.

1968 – 70-ci illərdə hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətdən sonra 1971-ci ilə qədər V.İ.Lenin adına ipəkçilik kombinatında usta köməkçisi işləmişdir.

1971-ci ilin sentyabr ayında daxili işlər orqanlarına qəbul olunmuş,Şəki milisində milis nəfəri vəzifəsində fəaliyyətə başlamışdır.

1976 – 78-ci illərdə N.Rizayev adına Bakı Orta Xüsusi Milis Məktəbində təhsilini davam etdirərək leytenant rütbəsi almışdır.

Son xidmət yeri baş leytenant rütbəsi ilə sahə müvəkkili vəzifəsində Şəki şəhər-rayon daxili işlər şöbəsində idi.

Ölümdən sonra "Qırmızı Ulduz"ordeninə layiq görülüb.

### QƏHRƏMANLAR NƏSLİ

Hər dəfə Şəkiyə gedəndə Çayqaraqoyunlunun, Suçma-nın, Üzümçülük sovxozunun ərazilərindən keçərkən Mikayıldan min bir xatirə danışan bu yerlərdə əyaq saxlayır,bir anlığa ötən illəri xatırlayaraq kövrək xatirələrə dalır,Mikayılın ölümünə heç cür inana bilmirəm.

Şəki milisində işlədiyim vaxtlar Mikayılla xidməti ərazimiz bir olduğundan gecəmiz-gündüzümüz bu yerlərdə keçmişdi.Suçmada,Çayqaraqoyunluda,Üzümçülük sovxozunda,ətraf kəndlərdə hamı Mikayılı tanıyırdı.Sahə müvəkkili işləyən Mikayıl bu yerlərin adamlarının dərd-sərinə yaxından bələd idi.Bu yerlərdə böyüyün də,kiçiyin də Mikayıla ərki vardı.Hamı ona ürək açar və razılıqla geri qayıdardı.Mikayıl bütün varlığı ilə çalışardı ki,kimsə ondan incik ayrılmasın.

"De Qoll" ləqəbi ilə şəkililərin dilindən düşməyən Mikayıl elnən,obaynan nəfəs alırdı.Adamların xidmətində durmaqdan yorulmazdı.Bunun üçün də o,həmişə sevilirdi.Onun iş otağından çıxanlar həmişə deyərdilər ki, "Əhmədiyyənin çörəyi sənə halal olsun.Allah o stolu sənə çox görməsin,Allah səni bu elə əsirgəməsin".

...1990-cı ilin dekabr ayının 2-də Azərbaycan Respublikası daxili işlər nazirinin sərəncamı ilə Şəki milisindən Eyvaz Məhərrəmov,Arzu Əliyev,Nazim Rəsulov,Azər Hüseynov və Mikayıl Cəbrayılov Qarabağa odlu-alovlu nöqtələrə ezam olunan dəstəyə milis baş leytenantı Mikayıl Cəbrayılov başçılıq edirdi.

Mikayılgil əvvəlcə Ağdama gəldilər.Orada müvafiq tapşırıqlar aldıqdan sonra Əskəranın Cəmilli kəndinə gəlmək üçün Şuşaya qalxdılar.

Hələ Şuşaya gedərkən erməni millətçiləri Əskəranın girəcəyində Mikayılgilə öz azğın əməlləri ilə "xoş gəldin" eylədilər.Şuşaya gedən maşın neçə yerdə daşa basıldıqdan sonra təhlükədən sovuşub Şuşaya çatdı.Şəkidən gələn Xankəndinin üstündən dövrə vurub Kosalar yolu ilə Cəmillinin təhlükəsizliyini təmin etməli idilər.

Mikayıl kəndin müdafiəsi üçün kifayət qədər qüvvə olmadığını yaxşı başa düşsə də,Cəmillinin müdafiəsi üçün əlindən gələni etdi.Kəndin ətrafında postlar qoydu,müşahidə məntəqələri yaratdı.Cəmilli beş-on milis işçisinin ümidinə qaldı.

Hərbçilər də Cəmilli camaatına qənim kəsilmişdi.Onlar kəndi deyil,silahlı erməniləri əliyalın azərbaycanlılardan qoruyurdular.Azərbaycanlılara qarşı qanlı cinayətlər törədiləndə qeybə çəkilir,ermənilərə kömək lazım olanda quduzlaşırdılar.Hamı kimi bunları Mikayıl da dərk edir,taleyi tükdən asılı olan Cəmillinin müdafiəçiləri hər an sayıq olmağa çağırırdı.

Cəmilliyə bir yandan düşmən hücumları,bir yandan da qazın,işığın olmaması,ərzağın qıtlığı kənd adamlarının güzəranını çətinləşdirir,pozulmuş əsəbləri bir tarıma çəkirdi.

Cəmilliyə çörək Şuşadan gəlirdi.Yolları nəzarətsiz saxlayan hərbçilər bütün ixtiyarı erməni yaraqlılarına verdiyindən Şuşaya gedərkən hər dəfə ölümlə üz-üzə gəlirdilər.Erməni quldurları quduzlaşdıqca Cəmillinin çörək təminatı pisləşirdi.Mühasiridə qalmış Cəmilli kəndinin sakinləri son ümidlərini milis işçilərinə dikmişdilər.Bunu Mikayılın dəstəsi tam məsuliyyəti ilə başa düşür,kəndi müdafiə etməklə yanaşı,çörək gətirilməsinin də qayğısına qalırdılar.Cəsur milis işçiləri çörək gözləri körpələrin çörək həsrətli sifətlərini görcək bütün təhlükələri unudur,kənd sakinlərinin çörəksiz qalmasını heç çürə qəbul edə bilmirdilər.

Şuşadan gələn yol təhlükəli və uzaq olduğundan bu yolla kəndi müntəzəm olaraq çörəklə təmin etmək sual altında idi.Çıxış yolu yaxınlıqdakı Kosalar kəndindən taxıl gətirməyə qalırdı.Bu yol da təhlükəsiz deyildi.Ancaq nə etmək olardı?Mikayıl Cəbrayılov bu çətin işi öhdəsinə götürdü.

...Dekabr ayının 15-i.Çörək dalınca növbəti səfər günü,Cəmilli kənd sakini Təvəkkül Cavadovun idarə etdiyi 50-17 AQT nömrəli "ZİL-130"markalı maşın milis baş leytenantı Mikayıl Cəbrayılovun başçılığı ilə Kosalara yol aldı.Maşında Mikayılın paqon yoldaşı Arzu Əliyevdən başqa yeddi kənd sakini də var idi.

Həmin günü Kosalara gedənləri yola salarkən kənd adamları sanki duymuşdular ki,bu səfər faciə ilə nəticələnəcək.Körpə uşaqlar atalarının dalınca ağlayırdılar,kənd adamlarını vahiməli bir narahatçılıq basmışdı.

...Cəmillidən çıxan maşın Kosalara çathaçatda güllə yağışına tutuldu.70-80 nəfərə qədər erməni qulduru maşını dövrəyə aldı.Onlar Cəmillidən gələnləri əsir tutmaq istəyirdilər.Azğın quldurlar maşını hərəkətdən saxlamaq üçün benzin bakına,təkərlərə atəş açdılar.Maşın dayandı.Sonradan açılan atəşlər Arzunun başından,Mikayılın qolundan dəydi.Kənd sakinlərindən yaralananlar oldu.Arzu elə oradaca dünyasını dəyişdi.Maşındakıların hamısının taleyi təhlükə altında qaldığından Mikayıl qolunun yarasına məhəl qoymadan yerə düşdü və maşındakılara qışqıraraq dedi:

-Mən bu alçaqların irəliləməsinə imkan verməyəcəyəm.Siz tez aradan çıxın.

Mikayıl özünü maşının altına verdi,avtomatını sinəsinə çıxıb düşmənə cavab atəşi açaraq onu irəliləməyə qoymadı.

Ölüm-dirim mübarizəsi davam edirdi.Mikayılın sərrast atəşləri erməni quldurlarını susdururdu.Artıq kənd adamları xilas ola bilmişdilər.Mikayılın şücaəti sayəsində onlar təhlükəli yerdən uzaqlaşmış,hərbçiləri köməyə çağırmağa getmişdilər.Lakin hərbçilər Mikayılın köməyinə gəlmədilər.O,qanlı döyüşdə tək qaldı.Erməni quldurları məğlubedilməz igidi susdurmaq üçün dörd tərəfdən onu atəşə tutdular.Mikayıl isə artıq son güllələrini istifadə edirdi.O,soydaşlarını xilas edə bilsə də,özünü xilas edə bilmədi.Vətən üçün,Vətən övladı üçün Qarabağ torpağında şəhid oldu.Əyilmədi düşmənə,qanı ilə Vətən torpağını suvardı.Qəhrəmanlığı ilə düşmənin özünü belə heyran qoydu.Mikayıl atası Əhmədiyyə Cəbrayılovun qəhrəmanlıqla dolu ömür yoluna nur saldı.Qəhrəman atanın qəhrəman oğlu bir nəslin qəhrəmanlığını davam etdirdi.

Mikayılın dəfn gününü xeç cür unuda bilmirəm.Həmin günü həmişəgülər Şəkini üzügülər görmədik.BU qədim şəhəri dövrələyən sıx meşələr,başı qarlı zirvələr,coşanda dağı-daşı lərzəyə gətirən Kiş çayı,tarixlərin şəhidi Xan sarayı da adamlara qoşulub yasa batmışdı.Bəlkə də ilk dəfə idi ki,Şəkinin üzü gülmürdü.Həmin günü bütün respublika axışırdı qəhrəmanlar yurdu Oxud kəndinə.Qəribə idi:qırx gündən artıq iflicdən yatan xəstə də xəstəxana paltarında özünü Oxud qəbristanlığına yetirmişdi.

Oxud qəbristanlığı.Qarşımızda dağ vüqarlı bir ata durub.Azərbaycanımızın fəxri Əhmədiyyə Cəbrayılovla – Fransa Müqavimət hərəkatının iştirakçısı,Daxau və Elzas-Lotarinkiya ölüm düşərgələrində ölümün üzünə şax baxmış,Armed Mişel,Ryus Armed və başqa adlarla Fransa torpağında faşizmə qarşı mübarizə aparmış,Fransa Müqavimət hərəkatının lideri Şarl de Qollun silahdaşı və sevimlisi olmuş əfsanəvi partizanla görüşürük.Dolan gözlərimiz,qəhərimiz Əhmədiyyə dayıya ağır itki üçün başsağlığı verməyə imkan vermir.Atasız qalan dörd körpə,qadınların vay-şivəni nitqimizi kəsib.Hələ məktəb illərindən qəhrəmanlığına vurulduğum,sonralar taleyin qismətilə Şəki milisində işləyərkən oğlu Mikayılla qonağı olduğum Əhmədiyyə dayının nur dolu simasındakı əzablara baxa bilmirəm.

Təskinliyə hansı sözlə başlamağımızı tapa bilmirik.Məclisdəkilərin hamısı bu vəziyyətdədir.Onun özü bizə təskinlik verir və mənə elə gəlirdi ki,Əhmədiyyə dayının süfrə başında dediyi sözlər tək məclisdəkilərə deyil,bütövlükdə Azərbaycan xalqına ünvanlanırdı :

- Qəm çəkmək,ruhdan düşmək vaxtı deyil.Bu gün torpaqlarımız təhlükəli vəziyyətdədir ! Qurbansız keçinmək mümkün deyil.Mən oğlum Mikayılın qanını Qarabağ torpağı üçün halal edirəm ! Fəxr edirəm ki,oğlum xalqın yolunda həlak olub.Bunun üçün qəmlənməyə dəyməz.Atalarımızın-babalarımızın yadigarı olan müqəddəs torpaqlarımızın toxunulmazlığı naminə həlak olanların hamısı mənim balamdır və oğlum Mikayıl onların heç birindən artıq deyil.Bu gün daha sıx birləşməli,özümüzü itirməməli,düşmənə qarşı qətiyyətlə mübarizə aparmalıyıq... – Xalqımızın bu ağır günlərində müdrik el ağsaqqalı öz dərdini "unudurdu",xalqı birliyə çağırırdı.Dünyaya meydan oxuyan faşizm onu sarsıda bilməmişdi.Vətəndə də,vətəndən çox-çox uzaqlarda da amalı AZADLIQ olmuşdu.Fəqət bilməmişdi ki,illər keçəcək,azdlığı uğrunda mübarizə apardığı Fransada xalqına qarşı qəsdlər hazırlanacaq,azdlığı uğrunda qanını tökdüyü bu ölkə daşnak ünsürlərinə qərargah olacaq və bu qərargahdan tuşlanan güllələr öz Respublikasında mühasirədə qalmış bir kəndin körpələri üçün çörək gətirməyə gedərkən ciyərparası Mikayılı düşmən gülləsi alacaq.

Əhmədiyyə dayı Mikayıla atasının adını vermişdi.Mikayıl bu adı qəhrəmanlıqla yaşatdı,onu əbədiləşdirdi.O,torpağımız-namusumuz naminə canını fəda verdi.O da bütün igid ərənlərimiz kimi torpağı Ulu Tanrının kölgəsi sayıb onun üçün heç nə əsirgəmədi.Atası Əhmədiyyə Cəbrayılov Qarabağa Xalq Yardımı Komitəsinin əməkdaşı kimi Fransada azərbaycanlılara ermənilər tərəfindən törədilən vəhşiliklərdən danışanda Mikayıl Qarabağ torpağında vuruşub şəhid oldu.Bu gün qədirbilən Azərbaycan xalqı,Şəki camaatı şərəfli ölümü ilə əbədiyyətə qovuşan Mikayıl Cəbrayılovun xatirəsini əziz tutub.Şəkinin geniş və abad küçələrindən birinə Mikayılın adı verilmişdir.Şəki Şəhər Daxili İşlər Şöbəsində yaradılmış Şöhrət güşəsində Mikayılın ata yurdu Oxud kəndindəki məktəbdə "Mikayıl Cəbrayılov" adına təqaüd təsis edilib.Mikayıl Cəbrayılovun şəhərdə ictimai binada yaşayan ailəsi kommunal xərclərdən birdəfəlik azad olunub.Qardaşı Elxan daxili işlər orqanlarına qəbul edilib.Mikayılın yadigarları – Müşfiq, Səadət, Aynur, Gülnara hər cür qayğı göstərilir.

...Bu gün Şəkinin Oxud kəndindəki qəbristanlıqda baş leytenant Mikayıl Cəbrayılovun qəbirüstü abidəsi ucalır. Bu abidə indi şəkililərin and yerinə çevrilib. Abidədən Mikayılın nikbin baxışları Azərbaycan xalqını inamlı,xoş bir gələcəyə səsləyir.

Tarix.info

## Şəki Televiziyası - Kanal S

**Verilişlərin proqramı 3 – 8 aprel**



**3 APREL**

07:00 *Kanal S Xəbər*
07:15 C/S "Pokemon"
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S"Həyat davam edir"
12:05 B/F"Qara cəngavər Betman"
14:30 T/S "Veverli küçəsinin cadugərləri
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Yaşamaq gözəldir
17:00 T/S"Həyat davam edir"
17:50 B/F "Ruslan"
19:30 Kanal S Xəbər
20:15 Qərinələr şahidi
20:40 T/S "İtkin gəlin"
21:15 Arşın malçı
21:30 Qəhqəhə
22:00 İşgüzar
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
00:00 Gecənin yarı (canlı)
02:00 B/F - "Ölümcül döyüş-1"
03:30 Klip
04:00 Kanal S Xəbər
04:15 T/S - "Alovlu həyat"
05:00 B/F -"Arxaya baxmadan qaç"

**4 APREL**

07:00 Kanal S Xəbər
07:15 C/S "Pokemon"
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S"Həyat davam edir"
12:05 B/F "Yalançı, yalançı"
13:30 Cizgi filmi
14:00 Güldürürük
14:30 T/S "Veverli küçəsinin cadugərləri
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Yaşamaq gözəldir
17:00 T/S"Həyat davam edir"
17:50 B/F"Əqrəblər hökmdarı"
19:30 Kanal S Xəbər
20:15 Ədəbi əbədiyyət
20:45 Muğam dəqiqələri
21:15 Arşın malçı
21:30 Məxfi gülüş
22:00 Sənətkar
22:30 Telekitab
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
00:00 Gecənin yarı (canlı)
02:00 B/F"Ölümcül döyüş-2"
03:20 Klip
04:00 Kanal S Xəbər
04:15 T/S "Alovlu həyat"
05:00 B/F"Öləndə yatacam"
06:45 Dəb

**5 APREL**

07:00 Kanal S Xəbər
07:15 C/S "Pokemon"
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S"Həyat davam edir"
12:05 B/F "Matrisa -1 "
14:05 Güldürürük
14:30 T/S "Veverli küçəsinin cadugərləri
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Yaşamaq gözəldir
17:00 T/S"Həyat davam edir"
17:50 B/F "13-cü rayon"
19:30 Kanal S Xəbər
20:15 Məhəllə
21:15 Arşın malçı
21:30 Milli detektiv
22:00 Sosial həyat
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
00:00 Gecənin yarı (canlı)
02:00 B/F"Taksi sürücüsü"
04:00 Kanal S Xəbər
04:15 T/S "Alovlu həyat"
05:00 B/F "Cia"

**6 APREL**

07:00 Kanal S Xəbər
07:15 C/S "Pokemon"
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S"Həyat davam edir"
12:05 B/F "Matrisa -2 "
14:15 Güldürürük
14:30 T/S "Veverli küçəsinin cadugərləri
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Yaşamaq gözəldir
17:00 T/S"Həyat davam edir"
17:50 B/F "Müqavilə"
19:30 Kanal S Xəbər
20:15 Qala
21:15 Arşın malçı
21:30 Oralar
22:00 B/F "Qırmızı papaq"
23:30 Kanal S Xəbər
00:00 Gecənin yarı (canlı)
02:00 B/F"Mən əfsanəyəm"
03:35 Klip
04:00 Kanal S Xəbər
04:15 T/S "Alovlu həyat"
05:00 B/F"Soldan sonuncu ev"
06:40 Dəb

**7 APREL**

07:00 T/S "Andromeda"
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 Güldürürük
12:05 B/F "Matrisa -3"
14:05 S/F "Möhtəşəm uçuşlar"
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Yaşamaq gözəldir(top)
17:00 Cizgi filmi
17:10 B/F"Mümkün olmayan sevgi"
19:30 Kanal S Xəbər
20:15 Şou məkan
21:15 Arşın malçı
21:30 T/S "Babayevlər"
22:00 Bu şəhərdə (yığmalar)
23:00 Sirlər
0:00 Gecənin yarı (canlı)
02:00 B/F "Bu oğlanın həyatı"
04:00 Klip
04:15 T/S "Alovlu həyat"
05:00 B/F "Xaus təcrübəsi"
06:30 Dəb

**8 APREL**

07:00 C/F "Panda-2"
08:30 Bağban
09:00 S/F "Nostradamus"
10:30 Klip
11:15 Sehrbazın sirləri
12:00 Əllamələr
12:30 Konsert
13:30 Sağlam həyat (canlı)
14:30 Sürət
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Sənət söhbətləri
16:30 Kanal S-inema
16:45 B/F "Nizami"
18:30 Bilik xəzinəsi
19:30 Güzgü
20:45 Dahilərin sirləri
21:15 Arşın malçı
21:30 Regionun səsi(seçim turu)
22:30
23:30 Kriminal
00:00 Gecənin yarı (canlı)
02:00 Futbol-Nostalji
03:40 Klip
04:15 T/S "Alovlu həyat"

# "Abdul Salam" hamamıda təmir -bərpa işləri başa çatmaq üzrədir

*Şəki şəhərində daha çox "Pendir hamamı" adıyla tanınan Abdulsalam hamamında təmir-bərpa işləri başa çatmaq üzrədir. Təmir-bərpa işlərini Azərbaycan Beynəlxalq Bankının maliyə dəstəyi ilə OPUS MMC həyata keçirir.*



Abdulsalam hamamı, ümumi görünüş



Abdulsalam hamamı, Hamamı içi, bərpa zamanı



Abdulsalam hamamı, Mirzəliyev Rafiq, iş icraçısı



Məmmədov Elşad, bərpaçı-usta

**Azerenerji.gov.az** *01.04.2012*

# ELEKTRİK ENERJİSİNƏ TƏLƏBAT DOLĞUN ŞƏKİLDƏ ÖDƏNİLİR

"Şəki Regional Elektrik Şəbəkəsi"-nin (REŞ) xidməti ərazisinə daxil olan elektrik şəbəkələrində həyata keçirilən məqsədyönlü tədbirlər bölgənin enerji təsərrüfatında dayanıqlığı daha da artırıb. Müəssisədən bu haqda "Azərenerji" ASC-nin Mətbuat xidmətinə məlumat verərkən bildirdilər ki, region əhalisinin daha da keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsində yüksək nailiyyətlər əldə edilib.

Mənbədən bildirilmişdir ki, REŞ-də elektrik enerjisi ilə təminatda dayanıqlığın daha da möhkəmləndirilməsi məqsədilə yarımstansiyalarda əsaslı və cari təmir işləri aparılıb. Belə ki, 110 kV-lik I-II "Şəki", I-II "Zaqatala", "İsmayıllı", II-III "Qəbələ" elektrik verilişi xətlərində 927 ədəd izolyator yeniləri ilə əvəz edilib. 35 kV-lik "Taxılçılıq"" hava xəttində 2 ədəd travers dəyişdirilib. Həmçinin 35 kV-lik "Şorsu", "Aşağı Göynük", "Oğuz" hava xətlərinin yağ açarları, 110/35/10 kV-lik "Şəki" yarımstansiyasının 1 və 2 saylı transformatorlarının 35/6 kV-lik giriş açarları təmir edilib. 35/10 kV-lik "Nij" yarımstansiyasında 2,5 MVA gücündə ikinci transformatorun sxemə qoşulması üçün hazırlıq işləri aparılıb.

Qeyd edək ki, cari ilin əvvəlindən mart ayının ortalarına qədər Balakən rayonunda 10-0,4 kV-lik xətlərdə 150 ədəd, Zaqatalada 110 ədəd, İsmayıllıda 38 ədəd ağac dayaq, 15 ədəd dəmir-beton dayaq yenisi ilə əvəz edilib. Bundan başqa, İsmayıllıda 110 kV-lik "Qubaxəlilli" yarımstansiyasından çıxan 10 kV-lik "Sovxoz" hava xəttinin trassası yenidən qurulduğu üçün 44 ədəd yeni dayaq basdırılıb. Həmçinin qaçqın və məcburi köçkünlərin istifadə etdikləri elektrik enerjisinin uçotunun dəqiqləşdirilməsi üçün "Şəki" REŞ-in xidməti ərazisində bu ilin əvvəlindən 1220 ədəd müasir tipli elektron sayğac quraşdırılıb.

Qeyd edək ki, bu il qış özünün sərt üzünü göstərdi, temperatur son yüz on ildə ən minimal həddə düşdü, intensiv yağan qar gündəlik həyatda bir çox problemlərə səbəb oldu. Lakin sözügedən müəssisənin xidməti ərazisinə daxil olan elektrik şəbəkələrində elektrik enerjisi təminatı ilə bağlı heç bir ciddi problem müşahidə olunmadı. İstehlakçılar əvvəlki kimi, fasiləsiz olaraq elektrik enerjisi ilə təchiz olundular. Bütün bunlar həmin elektrik şəbəkələrində çalışan insanların 2011-2012-ci ilin payız-qış mövsümü ilə əlaqədar nəzərdə tutulan tədbirlər planını lazımi səviyyədə yerinə yetirdiyini göstərir ki, bu da öz bəhrəsini verir.

Mənbəyə istinadən onu da qeyd edək ki, hazırda yurdumuza bahar qədəm qoyub. Yaz fəsli ilə əlaqədar "Şəki" REŞ-də bir sıra qabaqlayıcı tədbirlər yerinə yetirilib. Yaz aylarında sel daşqınları ilə əlaqədar bütün çay yataqlarının ərazilərindən keçən xətlərin dayaqları yoxlanılıb və təhlükə yarada biləcək dayaqların dibi bərkidilib. Bu məqsədlə 110 kV-lik III "Qəbələ" hava xəttində 120 saylı, 110 kV-lik I "Qəbələ" xəttində 50 saylı, 110 kV-lik I-II "Zaqatala" xəttində 284 saylı, 35 kV-lik "İvanovka" hava xəttində 19 saylı, 110 kV-lik "İpək kombinatı" hava xəttində 13 saylı anker dayağın dibi bərkidilib.

Yeri gəlmişkən, bayram günlərində REŞ-in xidməti ərazisinə daxil olan elektrik şəbəkələrində istehlakçıların tələbata uyğun elektrik enerjisi ilə təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirilib və nəticədə istehlakçıların bayram günlərində elektrik enerjisinə artan tələbatları dolğun şəkildə ödənilib və bu istiqamətdə heç bir problem müşahidə olunmayıb.

**Həmtəsisçilər :**
1. "Şəki-İpək" şirkəti;
2. M.Salis .

**(Baş) Redaktor:** Aydın Məmmədov.

**Çapa təqdim edildi:** 20.01.2012.
**Sifariş:** 198.
**Tiraj:** 500.
**Şəhadətnamə №** 177.

**Ünvanımız:** Az.5500. Şəki şəhəri, F.x.Xoyski -1, otaq 313.
**E-mail:** admin@ipekchi.biz .
**Tel.:** 055 793 23 83; 012 451 20 32; 0177 423 15,

**"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.**

**"İpəkçi" qəzeti müstəqil KİV olaraq fəaliyyət göstərir və bu qəzetdə dərc olunmuş xəbər və məqalələrin məzmununa görə "Şəki-İpək" ASC heç bir məsuliyyət daşımır!**

**■"İpəkçi" qəzeti respublikamızda nəşri davam edən yeganə çoxtirajlı (Sovet dövründə müəssisə qəzetləri belə adlanırdı), yeganə fəhlə qəzetidir!**

**■"İpəkçi" qəzeti 12.12.1990-ci il tarixdə, özünü "Şəki İpəkçilərinin Açıq Tribunası" elan edərək, hələ Sovet dövründə, rəsmən, müstəqil Azərbaycan mətbuatın əsasını qoymuşdur!**

**■Azərbaycan Sovet mətbuatında ənənəvi "Bütün ölkələrin proletarları birləşin!" şüarından və Kommunist partiyasının təsisçiliyindən də ilk dəfə - 12.12.1990-ci il tarixdə, "İpəkçi" qəzeti mtina etmişdir!**